# Füzulililərin şad günü

## Daha 30 ailə - 106 nəfər doğma yurda qovuşdu



Tarixi zəfərimizdən qısa müddət keçməsinə baxmayaraq, azadlığına qovuşan torpaqlarımızda sürətlə müasir infrastruktur qurulur, "ağıllı" kənd və şəhərlər salınır, hava limanları tikilir, tarixi, dini və mədəni abidələrin bərpası həyata keçirilir.

Regionun biomüxtəlifliyinin, təbiətinin qorunması və mövcud potensialdan səmərəli istifadə edilməsi, kənd təsərrüfatı istehsalının yenidən fəaliyyətə başlaması istiqamətində müvafiq işlər görülür.

Böyük qayıdış proqramına əsasən, ilk beşillikdə 34 min 500 ailənin işğaldan azad edilmiş ərazilərə köçürülməsi nəzərdə tutulur. Ötən dövrdə həyata keçirilən layihələr onu deməyə əsas verir ki, Qarabağ və Şərqi Zəngəzurda vətəndaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəlinir. Ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına qovuşurlar.

Dünən Bakı və Sumqayıt şəhərlərində, Abşeron, Beyləqan və Füzuli rayonlarında yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Füzuli şəhərinə yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə - 106 nəfər köçürülüb. Beləliklə də, şəhərdə 440 ailə, 1625 nəfərin daimi məskunlaşması təmin edilib. Böyük qayıdış çərçivəsində Füzuli şəhərində 295 nəfərin məşğulluğu təmin olunub.

Yurda dönüşlərini 30 il gözləyən füzulililər bizimlə təəssüratlarını bölüşüblər. Sumqayıt şəhərində məskunlaşdıqlarını bildirən keçmiş məcburi köçkün Ağgül Məmmədova deyib ki, Füzuliyə qayıtdığı üçün sevincinin hədd-hüdudu yoxdur: "Yurdumdan gənc yaşlarımda ayrıldım, çox ağrılı-acılı günlər yaşadım. Allaha şükürlər olsun ki, çətin günlər geridə qaldı. Ailəmlə birlikdə Füzuliyə qayıdıram, doğma el-obamı görmək üçün səbirsizlənirəm".

Birinci Qarabağ müharibəsinin iştirakçısı Füzuli sakini Taleh Əhmədov ötən illər ərzində hər gün torpaqlarımızın azad olunacağını gözlədiyini bildirib: "Bu gün çox sevincli və qürurlu günlərdən biridir. Doğma el-obamıza - Füzuliyə qayıdırıq. Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı. Otuz il düşmən tapdağında olan torpaqlarımız azad olundu və doğma yurd həsrətimiz sona çatdı. Hələ gənc yaşlarımda yurdumuzdan köçkün düşdük. İndi isə ailəmlə ata ocağıma qayıdıram. Bizə bu günləri yaşadan qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirəm".

İşğaldan azad edilmiş ərazilərimizə qayıdan ailələrin sayı gündən-günə artır. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçür, bu yerlərdə həyat yenidən öz axarına qayıdır. Torpaqlarından zorla didərgin salınan vətəndaşlarımız fərəh və qürurla yeni həyata başlayırlar.

Artıq 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 440 ailə (1625 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1246 ailə - 4924 nəfər elinə, obasına qovuşub.

Tezliklə dövlət başçımızın birbaşa nəzarəti ilə yurdlarından didərgin salınan, uzun illərdir doğma yerlərinin nisgilini çəkən, məcburi köçkün həyatı yaşayan vətəndaşlarımızın hamısı əzəli torpaqlarına qovuşacaqlar. Bütün keçmiş məcburi köçkünlər əzəli torpaqlarına dönəcəklər. Bununla da 30 illik həsrətə birdəfəlik son qoyulacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2024.- 23 yanvar, № 13.- S.12.